# Uşaqlıq və gənclikdən səhnələrdə uğurlara bürünüb...



Aynur xanımla ilk tanışlığımız 15 il əvvələ aiddir. Öz "Əhsən" qrupumla Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin səsyazma studiyasında Faiq Babayevin rejissorluğu ilə bir-neçə melodiyanı yazırdıq. Nə lazım idisə yazdıq, qrup üzvləri getdi, tamamlama işləri zamanı nağara ifaçısı Heybət Babayevlə mən qaldıq. Bu zaman gənc bir qız operator otağına daxil oldu, ədəb-ərkanla salamlaşaraq bir tərəfdə əyləşdi. Faiqdən soruşduqda ki, bu qız kimdir, müğənnidir-deyə cavab verdi. Gənc xanımdan adını soruşdum, cavab verdi:-Aynur. Ona xeyir-dua verdim. Aynur xanım gördü ki, Heybət və mən yaşlı adamlarıq, sevincək, səmimiyyətlə dilləndi:

- Siz mənim atamı tanıyarsınız, sizin yaşlardadır, pianoçudur, toylarda ionika, sonralar sintezator ifa edib.

- Atanızın adı necədir?

- Akif İsgəndərli.

Bir anlıq düşündüm və yadıma düşdü:

- Hə, tanıdım, əla musiqiçi, həm də səmimi və səviyyəli adamdır. Gənclik illərimizdə toy ifaçısı kimi çalışarkən dəfələrlə bizimlə birlikdə olub, həmişə də çalğısı ilə tamlıq və bütövlük yaradıb.

Heybət müəllim də Akif haqqında xoş sözlərini bildirdi və onun yaxşı sənət yoldaşlığı barədə ürək dolusu fikir söylədi. Söhbət zamanı bu gənc qızın səmimiyyəti, mədəni səviyyəsi, xoş rəftarı onun daxili aləmini və mənəvi saflığını açıb göstərdi.

Akif İsgəndərli A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbini, Xalq Konservatoriyasını, Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib və bütün ömrünü musiqiyə həsr edib. Ə.Bakıxanov adına ansamblın üzvüdür, Zeynəb Xanlarovanın ansamblında da çalışıb.





Aynur Akif qızı İsgəndərli 1987-ci il avqust ayının 20-də Bakı şəhərində musiqiçi ailəsində anadan olub. Ana İradə Mirzəağa qızı İsgəndərli fortepiano ixtisası üzrə təhsillidir, əla səsi və yüksək ifaçılıq bacarığı var. O, gücünü, bacarığını və məhəbbətini ailəsinə və övladlara yönəldib. Bu istedadlı xanım sənətə dair arzu-istəklərini qızı Aynurla reallaşdırıb.

**Haşiyə:** "İradə xanımın atası Mirzağa Ələsgər oğlu Məmmədov (1929-1987) yaxşı muiiçilərdən biri idi. 1 saylı uşaq musiqi məktəbinin fortepiano sinfini bitirmişdi. 16 yaşında A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin klarnet sinfinə qəbul olunmuş və ixtisas üzrə məşhur pedaqoq Qulam Səmədzadədən dərs almışdı.Buranı fərqlənmə diplomi ilə bitirmişdi. Əsgərlik zamanı Ukraynanın Jitomir şəhərində hərbi orkestrin klarnet ifaçı olmuş, tərxis olunub Bakıya gəldikdən sonra simfonik orketrdə çalışmışdı. Budan əlavə o, toyların ən mahir klarnet ifaçılarından biri kimi də məşhurlaşmışdı, sevilən sənətkar idi (Bax. Əhsən Rəhmanlı "Azərbaycanda klarnet ifaçılığı sənəti". MBM, 2010, səh.246-248).

Akif və İradə xanımın mehriban ailəsində iki qız-Aygün və Aynur böyüyüb. Bu ailənin mənsub olduğu şəcərə əsli-nəcabəti, istedadı, ziyalılığı və mədəniyyətimizə xidmətləri ilə cəmiyyətdə daim seçilib.

Aynurun ilk musiqi müəllimləri valideynləri olub. Onun fikirlərindən: "Üzərimdə atamın zəhməti çoxdur, daim məni müşayiət edir. Sənətdə mənim yol göstərənim, mayakım anamdır. İndiyə qədər də mahnılar üzərində işləyib ortaya çıxarana qədər anam mənimlə çalışır, dəyərli fikirlərini bildirir və həmişə mənə dayaq olur. Anamın tövsiyələri mənim üçün çox önəmlidir. Repertuar seçimimdə də onun xüsusi rolu var".

Aynur Samir Hacıyev adına 5 saylı ümumtəhsil məktəbi 2005-ci ildə başa vurub. Məktəbi bitirənə qədər o, bu təhsil ocağının bütün tədbirlərində, konsertlərdə vətənimizə həsr olunmuş mahnıları incə, zərif, kövrək səsilə həvəslə oxuyub. Məktəblər arası keçirilən baxış müsabiqələrdə öz doğma məktəbini təmsil edərək oxuyur və hər dəfə birincilik qazanırdı. 5-ci sinifdə məktəb tədbirlərinin birində M.Müşfiqin "Yenə o bağ olaydı" şeirini məntiqli, təsirli və yüksək səviyyədə söyləyərək, bir daha istedadını sübut edib alqışlar qazanıb.

O, Kövkəb Səfərəliyeva adına 16 saylı uşaq musiqi məktəbinin 7 illik fortepiano sinfini 2006-cı ildə uğurla başa vurub. Burada onun ixtisas müəllimi Rubina xanım olub.

Həmin zaman 5-ci sinfi bitirənə qədər Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru Ələkbər Hüseynovun (uşaqlar üçün Ələkbər əmi, 1961-2007) AzTV-də apardığı "Hər birimiz bir çiçək" adlı verilişlərdə müntəzəm oxuyub. Aynur verilişin ən kiçik ulduzu sayılırdı. Azərbaycanı vəsf edən mahnıları oxuyur və onu fortepianoda Akif İsgəndərli müşayiət edirdi.

Sonra isə o, bəstəkar Vaqif Gərayzadənin "Şərq ulduzları" vokal-estrada qrupun solisti kimi çıxış edib. Məşqlər Bülbül adına Orta İxtisas Musiqi Məktəbində aparılırdı. Bu qrup televiziyalar, radiolar və səhnələrdə müntəzəm çıxış edir, ifalar disklərə yazılır və yayımlanırdı. A.İsgəndərli "Şərq ulduzları" qrupu ilə 15 yaşa qədər sıx əlaqədə olaraq xeyli irəliləmişdi. Artıq onun ifalarını izləyən xeyli musiqisevərlər və tamaşaçılar vardı. O, həmin estrada-vokal qrupun tərkibində Şəhriyar mədəniyyət mərkəzində, Mahnı Teatrında, Opera və Balet Teatrında çıxış edərək daim uğurlar qazanmışdı.

Bəstəkar Faiq Sücəddinovun Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" şeirinə bəstəsi var. Bu əsəri A.İsgəndərli çox gözəl ifa edib və 2002-ci ildə buna klip çəkilərək AzTV, ANS, Space və digər televiziya kanallarında yayımlanıb.

Aynur 2004-cü ildə "Azəri star" televiziya səs yarışmasında üçüncü yeri tutub. Həmin ildə "Musiqili qədəm" adlı albomu işıq üzü görüb. Alboma onun ifasında bəstəkarlarımızın klassik əsərləri daxil edilib, burada çox gözəl ifalar var..

Aynur xanım bəstəkar Nailə Mirməmmədlinin (1961-2021) yaratdığı "Səmavi" qrupunun 2004-2006-cı illərdə solisti kimi fəaliyyət göstərib. O, V. Gərayzadənin rəhbərlik etdiyi "Aypara" qrupunun 2005-2014-cü illərdə solisti olub. Burada haşiyə çıxaraq deməliyik ki, gənc, istedadlı müğənnilərin, bu sırada Aynur İsgəndərlinin də sənətdə layiqincə yetişib, püxtələşib, inkişaf edib formalaşmasında V.Gərayzadə də xüsusi xidmət göstərib.

Aynur xanımın daha böyük nailiyyətlərindən biri 2005-ci ildə Şanxayda olub. Orada VIII Beynəlxalq Asiya festivalı olduqca möhtəşəm şəkildə keçirilirdi. Həmin zaman A.İsgəndərli gənclərin ən perspektivli nominasiyasını qazanıb. 2015-ci ildə Latviya Respublikasında baş tutan Atlantik Breeze Beynəlxalq vokalçılar festivalının da qalibi olaraq ikinci dərəcəli diplomla təltiflənib. Ona "Best vokal" diplomu verilib və "Asiyanın səsi nominasiyası"-nı qazanı'

Onun fikirlərindən: "2011-ci ildə Bakı Musiqi Akademiyasında keçirilən master-klaslarda münsiflər heyətinin üzvləri xarici ölkələrdən gəlmişdilər. Burada çıxış edən xeyli gənclər arasından üç nəfər seçildi və biri mən idim. Bizi Finlandiyaya göndərdilər. Savonlinna şəhərində-







ki Musiqi Akademiyasında 2011-ci ildə 2 ay dərs alaraq master-klass keçdik. Çox sevindirici, məsuliyyətli, maraqlı və şərəfli idi".

*(Ardı var)*

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, Sənətşünaslıq üzrə fəlsəfə doktoru**